## Həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas illəri

***1949, 16 oktyabr***
- *Naxçıvan MR Şərur rayonunun Dan yeri (Danzik) kəndində, müəllim ailəsində anadan olmuşdur.*

***1956-cı il***
- *Dan yeri kənd səkkizillik məktəbinin I sinfinə daxil olmuşdur.*

***1962-1963-cüillər***
- *Culfa rayonunun Əbrəqunus internat məktəbinin VII sinfində təhsil almışdır.*

***1963-1964-ci illər***
- *Yenidən Danzik məktəbinə qayıtmış, VIII sinfi bitirmişdir.*

***1964-cü il***
- *Şərur rayonundakı Ulya Noraşen (indiki Oğlanqala) kənd orta məktəbində təhsilini davam etdirmişdir.*
- *«Pambıqçı uşaqlar» adlı ilk məqaləsi «Azərbaycan pioneri» qəzetində dərc olunmuşdur.*

***1965-ci il***
- *Ulya Noraşen kənd orta məktəbində tamaşaya qoyulan «Vaqif» dramında iştirak etmişdir.*
- *«Gülümov» adlı səhnə əsəri yazmış, Şərur rayonunun Danzik kəndində özünün və şagird yoldaşlarının iştirakı ilə əsər tamaşaya qoyulmuşdur.*

***1966-cı il***
- *Ulya Noraşen kənd orta məktəbini bitirmiş və Azərbaycan Dövlət Universitetinə qəbul imtahanlarını versə də müsabiqədən keçə bilməmişdir.*
- *Bakıda əmək fəaliyyəti ilə məşğul olmuşdur.*

***1967-ci il***
- *Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə I kursuna qəbul olmuşdur.*

***1968-ci il***
- *Pedaqoji ali məktəb tələbələrinin Bakıda keçirilən Ümumittifaq konfransında məruzə ilə çıxış etmiş və diplomla təltif olunmuşdur.*
- *Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı üzrə Tələbə-Elmi Cəmiyyətinin sədri seçilmişdir.*
- *«Dünya vəfasız deyil» və «Mənim səhərim» adlı ilk şeirləri «Şərq qapısı» qəzetində dərc olunmuşdur.*

***1969-cu il***
- *«Böyük istedad» («Zəfər», 26 fevral), «İstedadlı rəssam» («Gənc müəllim», 19 iyun), «Naxçıvan tərənnüm olunur» («Şərq qapısı», 4 fevral) adlı ilk elmi məqalələri işıq üzü görmüşdür.*

***1970-ci il***
- *Naxçıvanda keçirilən «Elm günləri»ndə akademik Məmməd Cəfər Cəfərovla tanış olmuş, bu hadisədən sonra elm yolunu seçmək qərarına gəlmişdir.*

***1971-ci il***
- *Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialını «Azərbaycan dili və ədəbiyyat» ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir.*
- *Şərur rayonu Danzik kənd səkkizillik məktəbində ana dili və ədəbiyyat müəllimi kimi fəaliyyətə başlamışdır.*

***1972-ci il***
- *Hərbi xidmətdə olmuşdur.*

***1973-cü il***
- *Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun qiyabi aspiranturasına daxil olmuşdur. «XX əsrin əvvəlləri Azərbaycan romantik lirikasında sənətkarlıq xüsusiyyətləri» mövzusunda elmi tədqiqat üzərində işləməyə başlamışdır.*

***1974-cü il***

- *Arpaçayın dünəni və bu günü haqqında yazdığı «Arpaçayı daşa bilməz» lirik-epik poeması 1974-cü ildə «Kommunist» qəzetinin «Beş illik yollarında» devizi altında keçirdiyi müsabiqədə birinci mükafata layiq görülmüşdür.*

***1975-ci il***

- *Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunun «Ədəbiyyat» kafedrasında müəllim işləməyə başlamışdır.*
- *Azərbaycan Elmlər Akademiyası aspirantlarının elmi konfransında «XX əsr Azərbaycan romantik lirikasında Füzuli günləri» mövzusunda məruzə ilə çıxış etmişdir.*

***1979-cu il***

- *Azərbaycan Dövlət Universitetində Məhəmməd Hadinin 100 illiyinə həsr edilmiş konfransda «Hadi lirikasının sənətkarlıq xüsusiyyətləri» mövzusunda məruzəsi dinlənilmişdir.*

***1980-ci il***

- *Nizami adına Ədəbiyyat İnstitutunun İxtisaslaşmış Elmi Şurasında «XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası» mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir (14 mart).*

***1982-ci il***

- *Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurasında «Cəlil Məmmədquluzadə: mühiti və müasirləri» adlı doktorluq dissertasiyasının mövzusu təsdiq edilmişdir.*

***1983-cü il***

- *Bakı-Tbilisi və Naxçıvan arxivlərində elmi axtarışlarla məşğul olmuşdur.*

***1984-cü il***

- *Naxçıvan Dövlət Pedaqoji İnstitutunun «Ədəbiyyat» kafedrasında dosent təyin olunmuşdur.*
- *«Yazıçı» nəşriyyatında «Romantik lirikanın imkanları» adlı ilk monoqrafiyası çapdan çıxmışdır.*

***1985-ci il***

- *«Ədəbiyyat nəzəriyyəsi» və «Ədəbi yüksəliş» adlı kitabları çapdan çıxmışdır.*

***1986-cı il***

- *«Tələbələrin elmi-tədqiqat işi sahəsindəki müvəffəqiyyətlərinə görə» Ümumittifaq döş nişanı ilə təltif olunmuşdur (21 oktyabr).*

***1988-ci il***

- *Azərbaycan Yazıçılar Birliyinin üzvlüyünə qəbul edilmişdir.*
- *Odessada və Lev Tolstoyun Yasnaya Polyanadakı ev muzeyində elmi axtarışlarla məşğul olmuşdur.*

***1989-cu il***

- *Cəlil Məmmədquluzadənin övladlarının taleyini öyrənmək məqsədilə «Odlar yurdu» qəzetində dərc etdirdiyi «Ənvəri kim tanıyır?» adlı məqalə ilə axtarışlara başlamışdır. Ədibin nəslinin davamçılarının Fransada, İranda və Polşada yaşadıqları müəyyən etmişdir.*

***1990-cı il***

- *Cəlil Məmmədquluzadənin yeni tapılmış «Ər», «Lənət» və «Oyunbazlar» adlı naməlum pyeslərini Bakı Dövlət Universitetinin nəşriyyatında kitab halında nəşr etdirmişdir.*
- *Naxçıvan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru vəzifəsinə təyin edilmişdir.*

***1991-ci il***

- *İstanbulda keçirilən «Yayın konqresi və tatil haqları qurultayı»nda çıxış etmişdir.*

***1992-ci il***

- *Türkiyənin Atatürk Universiteti nəşriyyatında «XX yüzyılın başlarında yaşayan Azerbaycan yazarlarının bioqrafileri» və «Nahçıvan Universitesi» adlı kitabları çapdan çıxmışdır.*
- *Cəlil Məmmədquluzadənin nəvələri Teymur, Midhət və İrena Cavanşirilərlə Tehranda görüşmüşdür (26 yanvar).*

***1993-cü il***

- *Məmməd Araza həsr olunmuş albom –monoqrafiyaya görə «Məmməd Araz mükafatı» laureatı adı almışdır.*

- *Cəlil Məmmədquluzadənin 125 illik yubileyini keçirən Dövlət Komissiyasının tərkibinə daxil edilmişdir (17 dekabr).*

***1994-cü il***

- *Azərbaycan nümayəndə heyətinin tərkibində İraqda keçirilən «Füzuli günləri»ndə iştirak etmiş, Bağdadda, Kərkükdə, Nəcəfdə, Mədaində olmuş, Kərbəlada Füzulinin məzarını ziyarət etmişdir.*

***1995-ci il***

- *Şimali Kipr Türk Cümhuriyyətində keçirilən III Uluslararası Atatürk Simpoziumunda «Azərbaycan yazarı Əli bəy Hüseynzadənin yaradıcılığında Atatürk», İranın Marağa şəhərindəki Beynəlxalq Əvhədi Konqresində «Əvhədi əsərlərinin tərcüməsi və nəşri məsələləri» mövzusunda məruzə ilə çıxış etmişdir.*
- *Naxçıvan Atatürk Araşdırma Mərkəzinin rəhbəri seçilmişdir.*

***1996-cı il***

- *Nizami adına Ədəbiyyat İnstitutunun İxtisaslaşmış Şurasında «Cəlil Məmmədquluzadə: mühiti və müasirləri» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (15mart).*
- *Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin rektoru vəzifəsinə təyin olunmuşdur (16 oktyabr). 2013-cü ilə qədər bu vəzəfədə çalışmışdır.*

***1997-ci il***

- *Başqırdıstanın paytaxtı Ufada keçirilən Türkoloqların Beynəlxalq Konqresində «Əli bəy Hüseynzadənin türkçülük ideyaları» mövzusunda, Türkiyədə və Qırğızıstanda keçirilən qurultay və konfranslarda məruzələrlə çıxış etmişdir.*
- *Professor elmi adı almışdır.*
- *Azərbaycan Dövlət Nəşriyyatında «Cəlil Məmmədquluzadə: mühiti və müasirləri» adlı monoqrafiyası nəşr olunmuşdur.*
- *Naxçıvan MR Ali Məclisinin deputatı seçilmişdir.*

***1998-ci il***

- *Türkiyənin Van şəhərində keçirilən Uluslararası Dədə-Qorqud simpoziumunda «Kitabi-Dədə Qorqud» dastanlarının tədqiqi yeni mərhələdə» mövzusunda məruzəsi dinlənilmişdir.*
- *Azərbaycan Respublikasının Prezident seçkilərində Heydər Əliyevin vəkili olmuşdur.*
- *Şimali Kipr Respublikasında keçirilən «Atatürk, türk dünyası və Kıbrıs» simpoziumunda «Atatürk Naxçıvan» mövzusunda məruzə ilə çıxış etmişdir.*
- *Təhsil Nazirliyi nümayəndə heyətinin tərkibində Fransada səfərdə olmuşdur.*
- *Azərbaycan Jurnalistlər Birliyinə üzv qəbul edilmişdir.*

***1999-cu il***

- *Moskvanın «Nauka» nəşriyyatında «Djalil Mamedkuluzade (Molla Nasreddin)» adlı kitabı çapdan çıxmışdır.*
- *Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə görkəmli dövlət xadimi Heydər Əliyevə fəxri doktor diplomunu təqdim etmişdir.*
- *Parisdə YUNESKO-nun iqamətgahında keçirilən Dədə Qorqud günlərində «Basatın Təpəgözü öldürdüyü boy»da Azərbaycan» mövzusunda məruzə ilə çıxış etmişdir.*
- *«Ankara Universitetinin fəxri dostu» seçilmişdir.*
- *Atatürk Araşdırma Mərkəzi üzrə Atatürk Kültür, Dil və Tarix Qurumunun müxbir üzvü seçilmişdir.*
- *Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə «Əməkdar elm xadimi» fəxri adına layiq görülmüşdür.*
- *Anadan olmasının 50 illiyi münasibətilə Təhsil Nazirliyinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.*
- *Türkiyədə çıxan «Qardaş ədəbiyyatlar» jurnalının redaksiya heyətinin üzvü seçilmişdir.*
- *Hazırladığı «Müasir mərhələdə ali məktəbin idarə olunması və beynəlxalq əlaqələrin təşkili» adlı layihə Avropa Şurasının Tempus proqramı tərəfindən qəbul olunmuşdur.*

***2000-ci il***

- *Tempus proqramı çərçivəsində Fransada, Almaniyada, İngiltərədə, Belçikada olmuşdur.*

- *İkinci dəfə Naxçıvan MR Ali Məclisinin deputatı və «İnsan haqları, parlamentlərarası əlaqələr və beynəlxalq münasibətlər» komissiyasının sədri seçilmişdir.*
- *«Naxçıvan Dövlət Universiteti» kitabı Azərbaycan, ingilis, fransız, rus və alman dillərində çapdan çıxmışdır.*
- *Təbriz Dövlət Universitetində olan Naxçıvan Dövlət Universiteti nin nümayəndə heyətinə başçılıq etmişdir.*
- *Tehranda «Şəhriyar dünyası» kitabı çapdan çıxmışdır.*

**2001-ci il**

- *Nəsirəddin Tusinin 800 illik yubileyi ilə əlaqədar İranın Marağa şəhərində keçirilən simpoziumda çıxış etmişdir.*
- *Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.*
- *Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.*
- *ABŞ-ın Bioqrafiya İnstitutu tərəfindən «İlin adamı» adına layiq görülmüşdür.*
- *Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası İdarə Heyətinin üzvü seçilmişdir.*
- *NDU-nun «Elmi əsərləri»nin və «Fikir» informasiya jurnalının baş redaktoru olmuşdur.*

**2002-ci il**

- *Bolqarıstanın Şumen Dövlət Universitetində keçirilən beynəlxalq elmi konfransda «Əli bəy Hüseynzadənin Şərq-Qərb ideyaları» mövzusunda məruzə ilə çıxış etmişdir (oktyabr).*

**2003-cü il**

- *Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir (22 aprel).*
- *ABŞ-da olmuş, Perdu Kalument Universiteti ilə Naxçıvan Dövlət Universitetinin əməkdaşlığına dair müqavilə imzalanmışdır (5 noyabr).*
- *Ernest Heminqueyin ev muzeyini və oxuduğu məktəbi ziyarət etmiş, Heminquey Elmi mərkəzində «Heminquey və Azərbaycan» mövzusunda məruzəsi dinlənilmişdir.*
- *Bolqarıstanda çıxan «Kaynak» dərgisində «Molla Nəsrəddin» və Türkiyə» adlı məqaləsi (İman Cəfərovla birlikdə) çap edilmişdir.*
- *«Dialoq-Avrasiya» jurnalı redaksiyası heyətinin üzvü seçilmişdir.*

**2004-cü il**

- *Fransada nəşr olunan «Yeni ədəbiyyat» toplusunda Cəlil Məmmədquluzadə haqqında məqaləsi çap olunmuşdur.*
- *Avropa Universitetlər Assosiasiyasının İspaniyanın Barselona şəhərində keçirilən beynəlxalq konqresində iştirak və məruzə etmişdir (18-21 oktyabr).*
- *AMEA-nın «Xəbərlər» jurnalının (Dil, Ədəbiyyat, İncəsənət seriyası) redaksiya heyətinin üzvü seçilmişdir.*
- *Türkiyə Dil Qurumu türk dünyasında dil və ədəbiyyat sahəsindəki xidmətlərini nəzərə almaqla onu «Üstün Hizmət Baratı» mükafatına layiq görmüşdür.*

**2005-ci il**

- *Azərbaycan Respublikası Təhsil Nazirliyi nümayəndə heyətinin tərkibində Misir Ərəb Respublikasında səfərdə olmuşdur (14-22).*
- *Naxçıvan Dövlət Universitetinin Qahirə Hilvan və İskəndəriyyə universitetləri ilə qarşılıqlı əlaqələrinə dair müqavilə imzalanmışdır. Məşhur Misir ehramlarını ziyarət etmişdir.*
- *«Dialoq Avrasiya» qurumu tərəfindən Moskvada «Terrorizm və dinlərarası dialoq» mövzusunda keçirilən beynəlxalq simpoziumda iştirak etmişdir. Dünya şöhrətli yazıçı Çingiz Aytmatovla görüşmüşdür (7-11 iyun).*
- *«Elektron Naxçıvan: Problemlər və həllər» mövzusunda keçirilən beynəlxalq elmi-praktik konfransda iştirak və məruzə etmişdir.*
- *Azərbaycan Respublikasının Milli Məclisinə deputatlığa namizədliyi qeydə alınmışdır (6 avqust).*
- *«YUNESKO-Azərbaycan: Gələcəyə körpü» beynəlxalq konfransında iştirak etmişdir (Bakı, 24 avqust).*
- *Türkiyə Cümhuriyyətinin Doğu Bayazit şəhərində keçirilən «Birinci Uluslararası Ağrı dağı və Nuhun tufanı» simpoziumunda çıxış etmişdir.*

- *Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilmişdir (7 noyabr).*
- *Tunis şəhərində keçirilən İnformasiya texnologiyaları üzrə Dünya Sammitində iştirak etmişdir (13-17 noyabr). Sammit çərçivəsində təşkil olunan Azərbaycan günündə çıxış etmişdir.*
- *Üçüncü çağırış Azərbaycan Milli Məclisinin birinci iclasında iştirak etmişdir (1 dekabr).*

**2006-ci il**

- *Türkiyə Cümhuriyyətinin İqdır şəhərində keçirilmiş «Xocalı soyqırımı paneli»ndə «Xocalı faciəsinə tarixi-siyasi qiymət» adlı məruzə ilə çıxış etmişdir (26 fevral).*
- *Türkiyə Cümhuriyyətinin Kocaeli Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında qarşılıqlı əməkdaşlığa dair müqavilə bağlanılmışdır (5 aprel).*
- *«Dialoq Avrasiya» platformu və dərgisinin Türkiyənin Antalya şəhərində keçirilmiş beynəlxalq seminarında iştirak və çıxış etmişdir (6-9 aprel).*
- *Naxçıvan Dövlət Universitetinin Baytarlıq ixtisası ilə Qars Qafqaz Universitetinin uyğun ixtisası sahəsində əməkdaşlığı haqqında müqavilə imzalanmışdır (30 may).*
- *Türkiyə Cümhuriyyətinin Qars Qafqaz Universitetində «Molla Nəsrəddin» və türk dünyası» mövzusunda keçirilmiş beynəlxalq simpoziumda «Molla Nəsrəddin» jurnalının türk dünyasına baxışı» adlı elmi məruzə ilə çıxış etmişdir (1 iyun).*
- *«Elektron Naxçıvan-2» proqramı çərçivəsində Naxçıvan Dövlət Universitetində informasiya texnologiyalarına həsr edilmiş beynəlxalq konfransda məruzə ilə çıxış etmişdir. Universitetdə İsveçrə, Türkiyə və Azərbaycanın 7 universiteti ilə videokonfrans bağlantısı qurulmuşdur (24 iyun).*
- *Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü seçilmişdir (26 iyun).*
- *Böyük Britaniyanın məşhur Oksford Universitetində keçirilən Dünya Universitetlərinin Dünya Forumunda iştirak etmişdir (03-05 iyul). Forumun bölmə iclasında «Ali məktəbdə müasir texnologiyalardan istifadə və yeni təfəkkürün formalaşdırılması» mövzusunda çıxışı dinlənilmişdir (06 iyul).*
- *Londonda açılmış Azərbaycan məktəbinin birinci son zəng günündə iştirak və çıxış etmişdir 7 iyul).*
- *Moskvada Rusiya Dövlət Kitabxanasının Arxivində Məhəmmədağa Şahtaxtlının XIX əsr Rusiya mətbuatında çap olunmuş məqalələrini aşkara çıxarmış və əldə etmişdir (2-10 avqust).*
- *Görkəmli yazıçı-publisist, tarixçi Rudolf İvanovla görüşmüşdür (avqust).*
- *BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının Moskvadakı iqamətgahında olmuş, Akademiyanın Prezidenti, akademik A.Q.Xaritonla görüşmüş, üzvlük sənədlərini almışdır (4 avqust).*
- *Naxçıvan MR Ali Məcisinin nümayəndə heyətinin tərkibində İran İslam Respublikasının Qərbi Azərbaycan Ostandarlığında səfərdə olmuş, Urmiya Dövlət Universitetinin rəsmiləri ilə qarşılıqlı əməkdaşlıq məsələlərini müzakirə etmişdir (avqust).*
- *Azərbaycan Respublikası Milli Məclisi nümayəndə heyətinin tərkibində Pakistan İslam Respublikasının paytaxtı İslamabadda olmuşdur (28 noyabr - 02 dekabr). Səfər çərçivəsində Pakistan Parlamentinin Beynəlxalq Əlaqələr Komitəsində Qayd Əzim Dövlət Universitetində keçirilmiş seminarda, İslamabad Müasir Dillər Milli Universitetində çıxışlar etmişdir.*
- *İslamabad Müasir Dillər Milli Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında qarşılıqlı əməkdaşlığa dair müqavilə imzalanmışdır (1 dekabr).*
- *Naxçıvan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru Vəli Hüseynovla birlikdə hazırladığı «Tədris prosesində informasiya və kommu-nikasiya texnologiyalarının tətbiqi imkanları» adlı layihə Tempus proqramının İtaliyanın Turin şəhərindəki mərkəzi ofisinə təqdim olunmuşdur (15 dekabr).*

**2007-ci il**

- *Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə «Şöhrət» ordeni ilə təltif olun-muşdur.*
- *Naxçıvan Dövlət Universitetində keçirilən beynəlxalq simpoziumda «Riyaziyyat, mexanika və informatikanın müasir problemləri» mövzusunda çıxış etmişdir.*

- *Türkiyə Universitetləri rektorlarının ortaq toplantısında çıxış etmişdir.*
- *«Elektron Naxçıvan-3: İnformasiya cəmiyyəti: reallıqlar və perspektivlər» mövzusunda keçirilən elmi-praktik konfransda iştirak və məruzə etmişdir.*
- *«Azərbaycan-Misir əlaqələri» beynəlxalq simpoziumunda iştirak və məruzə etmiş, Naxçıvan Dövlət Universiteti və Qahirə Universiteti arasında qarşılıqlı əməkdaşlıq haqqında saziş imzalanmışdır.*

***2008-ci il***

- *BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü seçilmişdir.*
- *Moskvada nəşr edilən «Beynəlxalq elmi jurnal»ın redaksiya heyətinin üzvü seçilmişdir.*
- *Şəxsi kitabxanasında olan 21 min ədəd kitabdan 5 min ədədini universitet kitabxanasına hədiyyə etmişdir.*
- *Avropa Rektorlar Klubuna üzv qəbul edilmişdir.*
- *«Elektron Naxçıvan-4: Ucqar regionlara xas olan informasiya-kommunikasiya texnologiyaları problemləri» mövzusunda beynəlxalq elmi-praktik konfransda iştirak etmişdir.*
- *Türk Dünyası Pediatrlarının VIII konqresində iştirak etmişdir.*
- *Rusiya Federasiyasının Novosibirsk şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 85 illiyi ilə əlaqədar «Heydər Əliyev: lider və zaman» mövzusunda keçirilmiş beynəlxalq elmi konfransda iştirak və çıxış etmişdir.*
- *Naxçıvan Dövlət Universitetinin İran İslam Respublikasının Təbriz şəhərində olan nümayəndə heyətinə rəhbərlik etmiş, Təbriz Universitetinin rektoru Məhəmməd Əlavi ilə müqavilə imzalamışdır.*

***2009-cu il***

- *Moskvada «Prezident» otelində ali məktəblərə beynəlxalq mükafatların təqdimetmə mərasimində iştirak etmiş, Naxçıvan Dövlət Universitetinin layiq görüldüyü «Minilliyin universiteti» adlı beynəlxalq mükafat ona təqdim olunmuşdur.*
- *BMT-nin nəzdində fəaliyyət göstərən Beynəlxalq İnformasiyalaşdırma Akademiyası tərəfindən Beynəlxalq «İnformasiya aləminin elitası» mükafatının diplomu, vəsiqəsi və döş nişanı təqdim olunmuşdur (26 yanvar).*
- *Türkiyə Cümhuriyyətinin Elazığ şəhərindəki Fırat Universitetində Novruz şənliklərində iştirak etmiş, Ərdahan Universitetinin rektoru, professor-doktor Ramazan Korkmazla müqavilə imzalanmışdır.*
- *Naxçıvan Dövlət Universitetində Türkiyə Cümhuriyyəti Yüksək Öyrətim Kurumu heyətini qəbul etmişdir (mart).*
- *Naxçıvan Dövlət Universitetində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) «Biznesin və investisiya mühitinin inkişafı sahəsində müsbət təcrübələr» mövzusunda keçirdiyi beynəlxalq seminarda iştirak və məruzə etmişdir (20-22 may).*
- *Naxçıvan Dövlət Universiteti Asiya Universitetləri Assosiasiyasına üzv qəbul edilmişdir.*
- *YUNESKO-da keçirilən Ali təhsil üzrə beynəlxalq konqresdə iştirak etmişdir (Paris - 4-8 iyul).*
- *Azərbaycan Respublikası Prezidentinin 3 avqust 2009-cu il tarixli sərəncamı əsasında «Şərəf» ordeni ilə təltif olunmuşdur.*
- *«Atatürkdən Heydər Əliyevə - Nizamidən Yunus İmrəyə: tarixi-ədəbi ənənələr və müasir dövr» beynəlxalq simpoziumunda iştirak və məruzə etmişdir.*
- *Türkiyə Cümhuriyyəti Avrasiya Kültür və Sənət Qurumunun rəmzi mükafatını almışdır (11 sentyabr).*
- *Türkiyə Cümhuriyyəti Hüseyn Qazi Kültür və Sənət Vəqfinin mükafatına layiq görülmüşdür (11 sentyabr).*
- *Türkmənistan şəhərində keçirilən beynəlxalq konfransda «Koroğlu süjetləri və Şərq ədəbiyyatı» mövzusunda çıxış etmişdir.*
- *NDU-da keçirilən «Kəhriz sistemləri memarlıq abidəsi - dayanıqlı su sistemi, ictimai və iqtisadi inkişafın əsası kimi» mövzusunda beynəlxalq elmi-praktik konfransda iştirak və məruzə etmişdir (25 sentyabr).*

- *Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti akademik İsa Həbibbəylinin anadan olmasının 60 illik yubileyinin keçirilməsi haqqında qərar qəbul etmişdir (2 oktyabr).*
- *Naxçıvan MR Ali Məclisinin sərəncamı ilə anadan olmasının 60 illiyi münasibətilə Fəxri Fərmanla təltif edilmişdir (15 oktyabr).*
- *BMT-nin Beynəlxalq İnformasiyalaşdırma Akademiyası tərəfindən «Elmi istiqamətin rəhbəri» medalı ilə təltif olunmuşdur.*
- *Anadan olmasının 60 illiyi ilə əlaqədar olaraq NDU-da yubiley yığıncağı keçirilmişdir. AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev onun elmi-pedaqoji fəaliyyəti haqqında məruzə etmişdir (16 oktyabr).*
- *Azərbaycan Milli Elmlər Akademiyasının Fəxri Fərmanı ilə təltif olunmuşdur (10 noyabr)*
- *Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətində akademik İsa Həbibbəylinin 60 illiyi qeyd olunmuidur. Akademik Bəkir Nəbiyev məruzə ilə çıxış etmişdir (11 noyabr).*
- *60 illik yubileyi elmi-ictimai mühit tərəfindən yüksək səviyyədə qeyd olunmuşdur. Yubiley münasibəti ilə Naxçıvan MR Ali Məclisi Sədrinin Fəxri Fərmanı, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının «XIX-XX əsrlər Azərbaycan ədəbiyyatının (Mirzə Cəlilin) və Azərbaycanda müasir elmi-bədii fikrin inkişafı elmi istiqamətinin rəhbəri» mükafatı ilə təltif olunmuşdur (oktyabr).*
- *Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsi Gürcüstan Respublikasının Axalsix, Türkiyə Respublikasının Ərdahan və Qars şəhərlərində səfərdə olan heyətinə rəhbərlik etmişdir. Bu şəhərlərdə NDU-nun Tələbə Opera Studiyası Ü.Hacıbəyovun «Arşın mal alan» operettasını uğurla nümayiş etdirmişdir. Axalsix Dövlət Universitetinin rektoru, professor Tina Gelaşvili ilə universitetlərarası əlaqəyə dair müqavilə imzalanmışdır (noyabr).*
- *Avstriyanın Ştiriya vilayətində işgüzar səfərdə olmuş, Naxçıvan Dövlət Universiteti ilə Qras Karl Frantsenes Universiteti arasında ali məktəblərin ikitərəfli əlaqələrin inkişafı ilə bağlı əməkdaşlıq memarandumu imzalanmışdır. Səfər zamanı Ştiriya federal əyalət hökumətinin Avropa ölkələri və xarici əlaqələr üzrə idarəsinin rəhbəri Lüdviq Raderlə görüş keçirilmişdir.*
- *«Elektron Naxçıvan - 4: Ucqar regionlara xas olan informasiya-kommunikasiya texnologiyaları problemləri» mövzusunda beynəlxalq elmi-praktik konfransda çıxış etmişdir.*
- *Türk Dünyası Pediatrlarının VIII konqresində çıxış etmişdir.*
- *Rusiya Federasiyasının Novosibirsk şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 85 illiyi ilə əlaqədar «Heydər Əliyev: lider və zaman» mövzusunda keçirilmiş beynəlxalq elmi konfransda iştirak və çıxış etmişdir.*
- *Uluslararası Türk kültürü konqresində məruzə ilə çıxış etmişdir.*
- *Türkiyədə keçirilən Uluslararası Ağrıdağı simpoziumunda iştirak etmişdir.*
- *Bakı Dövlət Universitetinin 90 illik yubileyində iştirak və çıxış etmişdir (2 noyabr).*
- *Cəlil Məmmədquluzadənin anadan olmasının 140 illiyi ilə əlaqədar Naxçıvanda keçirilən yubiley yığıncağında məruzə ilə çıxış etmişdir (29 декабр).*

**2010-cu il**

- *Türkiyənin Ərdəhan şəhərində Atatürk Kültür Mərkəzinin, Ərdəhan vilayətinin və Ərdəhan Universitetinin Naxçıvan Universiteti ilə birgə keçirdikləri «Azadlığın səsi Bətiyar Vahabzadə» beynəlxalq simpoziumunda iştirak etmişdir. Bölmə iclaslarından birinə sədrlik etmiş, «Xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığında milli istiqlal düşüncəsi» mövzusunda məruzə etmişdir. Ərdəhan küçələrindən birinə şairin adının verilməsi mərasimində nitq söyləmişdir. (13-14 fevral)*
- *Naxçıvan Dövlət Universitetində «Elektron Naxçıvan – 5: nəticələr və vəzifələr» mövzusunda keçirilən beynəlxalq simpoziumda çıxış etmişdir (25-26 iyun).*
- *Macarıstanda keçirilmiş «Macarıstan-Azərbaycan: mədəniyyətlərin dialoqu» V Beynəlxalq elmi konfransda «XX əsrin əvvəlləri Azərbaycan ədəbi-ictimai fikrində Avropa» mövzusunda məruzə ilə çıxış etmiş, bölmə iclasının sədri olmuşdur (25-26 noyabr).*
- *Ukraynanın Krım Muxtar Vilayətinin Yalta şəhərindəki «Rossiya» sanatoriyasında müalicə olunmuşdur (30 iyul-10 avqust).*

- *Beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisində keçirilmiş seçkilərdə iştirak etmiş, Milli Məclisin deputatı seçilmişdir (6 noyabr).*
- *Amerika Bioqrafiya İnstitutunun rəhbərliyi tərəfindən çoxcəhətli fəaliyyəti araşdırılaraq cəmiyyətə mühüm elmi və mədəni uğurlar təqdim etdiyinə, elm sahəsində böyük nailiyyətlər qazandığına görə görkəmli alim kimi institutun akademiki seçilmişdir (14 dekabr).*

**2011-ci il**

- *Qars Qafqaz Universitetinin rektoru, professor-doktor Sami Özcanın rəhbərlik etdiyi 23 nəfərlik nümayəndə heyətini Naxçıvan Dövlət Universitetində qəbul etmişdir. Qars Qafqaz Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında əməkdaşlıq müqaviləsinin layihəsi müzakirə olunmuşdur (23-24 yanvar).*
- *Şimali Qafqazın Yesentuki şəhərindəki «İstok» sanatoriyasında müalicə olunmuşdur (30 yanvar-12 fevral).*
- *Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Bakıda Akademiyanın Rəyasət Heyətində keçirilən hesabat yığıncağında çıxış etmişdir (14 fevral).*
- *Türkiyə Cümhuriyyətinin Qars şəhərində Qars Qafqaz Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır (22 mart).*
- *Naxçıvan Dövlət Universitetinin nümayəndə heyəti Qars şəhərində görkəmli dövlət xadimi Heydər Əliyevin büstünü ziyarət etmiş, 1921-ci ildə Qars müqaviləsinin imzalandığı tarixi bina və Osmanlı-Rusiya müharibəsində Türkiyə ordusuna rəhbərlik etmiş general Əhməd Muxtar Paşanın qərargah-muzeyi ilə tanış olmuşdur.*
- *Ankara Universitetinin rektoru, professor Camal Taluq ilə birlikdə Naxçıvan Dövlət Universiteti ilə əlaqələr haqqında əməkdaşlıq müqaviləsi imzalamışdır (24 mart).*
- *Türkiyə Cümhuriyyəti Yüksək Öyrətim Kurumu Başkanı, professor-doktor Yusif Ziya Özcanla görüşmüş, Naxçıvan Dövlət Universiteti ilə Türkiyə ali məktəblərinin əlaqələrinin genişləndirilməsi və Türkiyədən NDU-ya tələbə qəbulunu artıran ixtisasların çoxaldılması ilə əlaqədar məsələlər müzakirə olunmuşdur (24 mart).*
- *Bilkənd Universitetində olmuş, İhsan Doğramacının heykəlini ziyarət etmişdir (24 mart).*
- *Yaponiyanın ölkəmizdəki səfirliyinin nümayəndəsini qəbul etmişdir (aprel).*
- *ATƏT-in Bakı ofisinin nümayəndələri ilə birlikdə aparılan danışıqlarda NDU-da Avropa məhkəmələrinin modelini təqdim edən bir layihənin həyata keçirilməsi müzakirə olunmuşdur.*
- *Azərbaycan Respublikası Milli Məclisinin iclasında «Miqrasiya Qanunu haqqında Əsasnamə»yə əlavə edilməsi məsələsinə dair çıxış etmişdir (9 aprel).*
- *Şimali Kipr Respublikasının Doğu Akdeniz Universitetinin rektoru, professor-doktor Abdullah Öztopraq və Türkiyə Cümhuriyyətinin Ərdahan Universitetinin rektoru, professor-doktor Ramazan Korkmaz Naxçıvan Dövlət Universitetində olmuşlar. Qarşılıqlı əməkdaşlıq müqavilələri imzalanmışdır (28-29 aprel).*
- *Azərbaycan Respublikasının Milli Məclisində «Naxçıvan MR Konstitusiyasına dəyişikliklər haqqında» qanun layihəsinin müzakirəsində çıxış etmişdir (7 may).*
- *Amerika Bioqrafiya İnstitutunun akademiki seçilmişdir.*
- *Tempus proqramı çərçivəsində Naxçıvan Dövlət Universitetinin heyəti rektor İsa Həbibbəylinin rəhbərliyi ilə İspaniyanın Alikante şəhərindəki universitetdə olmuş, icra edilməkdə olan «Sahib-karlıq fəaliyyətində innovasiyaların tətbiqi» adlı layihənin həyata keçirilməsi məsələləri ətrafında iş aparılmışdır (20-25 may).*
- *AMEA Naxçıvan Bölməsində Behbud ağa Şahtaxtinskinin anadan olmasının 130 illiyi münasibətilə keçirilən elmi konfransda «Behbud ağa Şahtaxtinskinin V.İ.Leninə məktubları» adlı məruzə ilə çıxış etmişdir (28 sentyabr).*
- *Qars Qafqaz Universiteti və Naxçıvan Dövlət Universitetinin birgə keçirdikləri «Kars Antlaşması ve Bölgesel Etkileri» adlı III Uluslararası Kafkasya Tarih simpoziumunun əsas təşkilatçılarından olmuş və məruzə ilə çıxış etmişdir (14 oktyabr).*

**2012-ci il**

- *İran İslam Respublikasının Payyamnur Universitetinin rektoru və əməkdaşları ilə Naxçıvan Dövlət Universitetində görüşmüşdür (12 yanvar).*

- *Polşanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixal Labenda, Polşa Baş Ticarət Məktəbinin rektoru Adam Budnikovski və səfirlik əməkdaşları ilə Naxçıvan Dövlət Universitetində görüşdə əməkdaşlıq əlaqəsi müaviləsini imzalamışdır (24-25 fevral).*
- *Yaponiyanın Elm, Təhsil, Mədəniyyət və İdman Nazirliyinin təşkil etdiyi «Ali məktəblərin səmərəli idarə olunmasında Yapon modeli» mövzusuna həsr olunmuş beynəlxalq seminarda Naxçıvan Dövlət Universitetinin rektoru akade-mik İsa Həbibbəyli və Beynəlxalq Münasibətlər kafedrasının baş müəllimi Seymur Talıbov iştirak etmişlər. Naxçıvan Dövlət Universitetinin rektoru, akademik İsa Həbibbəyli Yaponiya İdarəçilik Akademiyasında və Xosey Universitetində çıxış etmiş, mənsub olduğu universitetin inkişaf yolu haqqında məlumat vermiş, qarşılıqlı əməkdaşlığa dair təkliflər irəli sürmüşdür. Xosey Universitetinin prezidenti rəsmi olaraq Naxçıvan Dövlət Universitetinə dəvət olunmuşdur (22-28 aprel).*
- *Avstriyaya səfər etmiş və Grats Universitetində Naxçıvan Dövlət Universitetinin təqdimatı olmuşdur (6-9 may).*
- *Ağrı Çeçen İbrahim Universitetində 16 universitet rektorunun iştirak etdiyi «İşbirliyində öncelikli konular və geleceye yonelik planlar» toplantısında iştirak və çıxış etmişdir (16 may).*
- *Ukraynanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Aleksandr Mişenko ilə Naxçıvan Dövlət Universitetində görüş keçirilmiş, görüş zamanı ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.*
- *Gürcüstanın Acarıstan Muxtar Respublikası hökumətinin sədri Levan Varşalomidze və onun rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Dövlət Universitetində olmuşlar. Görüş zamanı Naxçıvan Dövlət Universiteti ilə Şota Rustaveli adına Batumi Dövlət Universiteti arasında elm, təhsil, mədəniyyət və idman üzrə əlaqələri geniş-ləndirmək və inkişaf etdirmək məqsədilə anlaşma memorandumu imzalanmışdır.*
- *Naxçıvan Dövlət Universitetində Türkiyə Respublikası XİN-in Strateji Araşdırmalar Mərkəzi və Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin birgə təşkilatçılığı ilə «Azərbaycan-Türkiyə münasibətlərinin aktual məsələləri: reallıqlar və perspektivlər» adlı beynəlxalq konfransda çıxış etmişdir.*
- *Türkiyə Cümhuriyyətinin Ərzincan Universitetinin rektoru, professor İlyas Çapoğlunun başçılıq etdiyi nümayəndə heyətini Naxçıvan Dövlət Universitetində qəbul etmiş qarşılıqlı əməkdaşlıq haqqında müqavilə imzalamışdır (20 iyun).*
- *Naxçıvan Dövlət Universitetində «Elektron Naxçıvan-7: lokal şəbəkədə İKT-dən istifadə imkanları» mövzusunda beynəlxalq simpoziumda iştirak etmiş, məruzəsi dinlənilmişdir (6-7 iyul).*
- *«Naxçıvan: İlkin şəhər və Duzdağ» mövzusunda keçirilmiş beynəlxalq simpoziumda «Nuhdaban oturaq məkanı və Duzdağ şəhərətrafı mədəniyyəti» mövzusunda çıxış etmişdir (30 iyul).*
- *Avstriyanın «Gain&Sustan» («Əldə etmək və saxlamaq») təşkilatının Naxçıvan Dövlət Universiteti ilə birgə hazırladığı «Gənclər fəaliyyətdə» layihəsi Avropa İttifaqı tərəfindən maliyyələşdirmə üçün qəbul olunmuşdur(26-30 avqust).*
- *Naxçıvan Dövlət Universitetində İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğunun Mədəniyyət idarəsi ilə birgə keçirdiyi «Şəhriyar – müasir dövrün böyük şairi» mövzusunda beynəlxalq elmi konfransda iştirak və çıxış etmişdir (6 oktyabr).*
- *Naxçıvan Dövlət Universitetində «Türk Akademiyasının yaradılması və türkdilli dövlətlərin Naxçıvan sammitinin qərarlarının həyata keçirilməsində böyük addım» mövzusunda beynəlxalq təqdimat mərasimində çıxış etmişdir. Tədbirdə NDU-nun rektoru, akademik İsa Həbibbəyliyə və AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevə Türk Akademiyasının prezidenti adından fəal əməkdaşlığa və xidmətlərinə görə minnətdarlıq məktubu oxunmuşdur (16 oktyabr).*
- *Koreya Respublikası Beynəlxalq Əməkdaşlıq Agentliyinə təqdim olunmuş «Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multmedia infrastrukturunun yaradılması» layihəsi müsabiqədə maliyyələşmə üçün tövsiyə olunmuşdur (15 noyabr).*

- *Naxçıvan Dövlət Universitetində «Ümumi orta təhsilin müasir problemləri» mövzusunda keçirilmiş beynəlxalq elmi konfrasda iştirak və çıxış etmişdir (24 noyabr).*
- *Türkiyənin Ərzurum Atatürk Universitetinin rektoru professor Hikmət Koçakın başçılıq etdiyi nümayəndə heyəti Naxçıvan Dövlət Universitetində olmuş hər iki universitet arasında əməkdaşlqı müqaviləsi imzalanmışdır (17 dekabr).*
- *AMEA Naxçıvan Bölməsində Azərbaycanın tanınmış ictimai-siyasi xadimi, əməkdar jurnalist Nəsrulla İmanquliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş elmi konfransda «Nəsrulla İmanquliyevin ömür yolu və jurnalistlik fəaliyyəti» mövzusunda məruzə ilə çıxış etmişdir (27 dekabr).*

***2013-cü il***

- *Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti seçilmişdir (24 aprel).*
- *Naxçıvan Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilmişdir (25 aprel).*
- *Ədəbiyyat İnstitutunda Xalq yazıçısı, filologiya üzrə elmlər doktoru, professor Elçin Əfəndiyevin anadan olmasının 70 illiyinə həsr edilən elmi sessiyada məruzəsi dinlənilmişdir (12 may).*
- *AMEA Nizami adına Ədəbiyyat İnstitutuna direktor təyin olunmuşdur (19 iyun).*
- *Akademik şərqşünas alim, Vasim Məmmədəliyevin 70 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda çıxış etmişdir (27 iyun).*
- *Penza Dövlət Universitetində keçirilən VIII Beynəlxalq «Elektron Naxçıvan» konfransının (9 iyul, 2013) fəxri qonağı olmuş, məruzə ilə çıxış etmişdir.*
- *Naxçıvan: ilkin şəhər və Duzdağ beynəlxalq simpoziumunda iştirak etmiş, məruzəsi dinlənilmişdir (27-28 iyul).*
- *Elm, texnologiya, təhsil sahəsində Beynəlxalq Sokrat Komitəsi, Avropa Biznes Assambleyası, Avropa Rektorları Klubu və dünyanın 16 aparıcı dövlətinin ən mötəbər peşəkar və elmi-yaradıcı birliklərinin təsis etdiyi «The Name in Science Award» («Elmdə ad») mükafatına layiq görülmüşdür (sentyabr).*
- *AMEA Rəyasət Heyətində Rusiya Dövlət Ermitaj muzeyinin direktor müavini Georgi Vadimoviç Vilinbaxov ilə görüşmüşdür (2 noyabr).*
- *Almaniyanın Humboldt Universitetində fəaliyyət göstərən «Azərbaycan tarixi» kafedrası ilə Nizami adına Ədəbiyyat İnstitutu arasında müqaviləni imzalamışdır (2 noyabr).*
- *Qazaxıstanın Astana şəhərində Türk Akademiyasının keçirdiyi «Çingiz Aytmatov və müasir türk dünyası» adlı beynəlxalq simpoziumda «Ədəbiyyatda millilik və bəşəriliyin vəhdətinin Çingiz Aytmatov modeli» mövzusunda məruzə etmişdir (6 noyabr).*
- *Nizami adına Ədəbiyyat İnstitutu ilə Türk Akademiyası arasında qarşılıqlı əməkdaşlığa dair müqavilə imzalanmışdır (6 noyabr).*
- *M.V.Lomonosov adına MDU-nun Bakı filialında «Oksford Universiteti nəzdində Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi» mövzusunda «dəyirmi masa» keçirilmişdir (25 noyabr).*
- *Azərbaycan-Polşa əlaqələrində ədəbiyyat məsələlərinə həsr olunmuş Polşa-Azərbaycan əlaqələri Beynəlxalq simpoziumunda iştirak etmişdir. (26-27 noyabr, Polşa,Varşava)*
- *Polşa Respublikasının paytaxtı Varşava şəhərində keçirilən Azərbaycan Milli Elmlər Akademiyası ilə Polşa Elmlər Akademiyası arasında əməkdaşlıq müqaviləsinin imzalanma mərasimində iştirak etmişdir. AMEA-nın prezidenti, akademik Akif Əlizadənin və Polşa EA-nın prezidenti, professor Mixal Kleyber əməkdaşlıq protokolu imzalamışlar (3 dekabr).*
- *Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında AR Prezidentinin Fərmanı ilə yeni tərkibə üzv seçilmişdir (11 dekabr).*
- *AMEA- nın Nizami adına Ədəbiyyat İnstitutunda Xalq şairi Məmməd Arazın 80 illik yubileyinə həsr edilmiş elmi sessiyada məruzə ilə çıxış etmişdir (18 dekabr).*
- *Nizami adına Ədəbiyyat İnstitutunda Şota Rustaveli adına Gürcüstan Ədəbiyyatı İnstitutunun nümayəndə heyəti ilə görüş keçirmişdir. Görüşün sonunda Nizami adına Ədəbiyyat İnstitutu*

*ilə Gürcüstan Ədəbiyyatı İnstitutu arasında qarşılıqlı əməkdaşlıq haqqında müqaviləni akademik İsa Həbibbəyli və Şota Rustaveli adına Gürcüstan Ədəbiyyatı İnstitutunun Elmi Şurasının sədri, filologiya elmləri doktoru Qaqa Lomidze imzalamışlar (23 dekabr).*

- *Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasına üzv seçilmişdir (dekabr).*
- *Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidentləri akademik İbrahim Quliyevin və akademik İsa Həbibbəylinin təmsil etdiyi nümayəndə heyəti Özbəkistan Elmlər Akademiyasının yaradılmasının 70 illik yubiley tədbirlərində iştirak etmiş, bir sıra elmi-tədqiqat qurumlarının rəhbərləri ilə işgüzar görüşlər keçirmiş, akademiyalararası əlaqələrin yenidən formalaşdırılması istiqamətində danışıqlar aparmışlar. Akademik İsa Həbibbəyli təbrik nitqi ilə çıxış etmişdir. (28 dekabr).*

***2014-cü il***

- *Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun 80 illik yubiley tədbiri keçirilmişdir. Tədbirdə Milli Məclisin deputatları, tanınmış elm, ədəbiyyat və mədəniyyət xadimləri, xarici ölkələrdən gəlmiş qonaqlar iştirak etmişlər. AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, Mili Məclisin deputatı, akademik İsa Həbibbəyli «Nizami adına Ədəbiyyat İnstitutu davamlı ənənələr və müasirləşmə yollarında» mövzusunda geniş məruzə ilə çıxış etmişdir (17 yanvar).*
- *AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri – «Ədəbiyyat məcmuəsi»nin xüsusi buraxılışı akademik İ.Həbibbəylinin baş redaktorluğu ilə çapdan çıxmışdır (yanvar).*
- *Nizami adına Ədəbiyyat İnstitutunun 80 illik yubileyi münasibətilə İnstitutu akademik İsa Həbibbəylinin müəllifi olduğu tanıtma kitabı çap olunmuşdur (yanvar).*
- *Naxçıvan MR-nın 90 illiyinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli Naxçıvan Muxtar Respublikasının keçdiyi tarixi inkişaf yolu haqqında ətraflı məruzə ilə çıxış etmişdir (11 mart).*
- *Salyan şəhərində Əlibəy Hüseynzadənin 150 illik yubileyində iştirak və çıxış etmişdir (26 aprel).*
- *«Məhdimqulu Fəraqi və dünya ədəbiyyatı» mövzusunda beynəlxalq simpoziumda iştirak etmişdir (Türkmənistan, Aşqabad , 11-13 may).*
- *Astanada türkdilli dövlətlərin «Türk yazı günü» mövzusunda Beynəlxalq forumunda iştirak etmişdir. Beynəlxalq forumda ölkəmizi AMEA-nın vitse-prezidenti İsa Həbibbəyli də təmsil etmişdir (Qazaxıstan, Astana, 16-17 may).*
- *Ilyas Əfəndiyevin anadan olmasının 100 illiyi münasibəti ilə Nizami adına Ədəbiyyat İnstitutunda keçirilən tədbirdə yazıçının həyat və yaradıcılığından bəhs edən giriş nitqi söyləmişdir (23 may).*
- *Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş elmi sessiyada «Azərbaycanın çoxəsrlik tarixində Naxçıvanın yeri» mövzusunda məruzə ilə çıxış etmişdir (10 iyun).*
- *AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda akademik Ramiz Mehdiyevin elmi redaktorluğu ilə nəşr «Şah İsmayıl Səfəvi: tarixi-diplomatik sənədlər toplusu» kitabının təqdimat mərasimində çıxış etmişdir (20 iyun).*
- *Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin təşkilatçılığı ilə Cəlil Məmmədquluzadənin Ev-muzeyində XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, yazıçı-dramaturq, publisist, ictimai xadim Cəlil Məmmədquluzadənin anadan olmasının 145-ci ildönümünə həsr edilmiş tədbirdə çıxış etmişdir (27 iyun).*
- *Nizami adına Ədəbiyyat İnstitutunda Macarıstan Elmlər Akademiyası (EA) Türkoloji Araşdırmalar İnstitutunun direkoru, akademik Georq Xazai və Türkiyə Qafqaz Universitetlər Birliyinin sədri, professor Ramazan Qorxmazla görüş keçirmiş, görüşün sonunda Nizami adına Ədəbiyyat İnstitutu və Türkiyə Qafqaz Universitetlər Birliyi arasında anlaşma memorandumu imzalamışdır.*
- *AMEA Nizami adına Ədəbiyyat İnstitutu «Elektron Naxçıvan-9» adlı beynəlxalq elmi-təcrübi videokonfransın fəal iştirakçısı olmuşdur. Naxçıvan Dövlət Universiteti, AMEA İnformasiya*

*Texnologiyaları İnstitutunun birgə təşkilatçılığı ilə artıq doqquzuncu dəfə keçirilən beynəlxalq səviyyəli video-konfransa bu il Nizami adına Ədəbiyyat İnstitutu da qoşulmuşdur Akademik İsa Həbibbəyli humanitar yönlü bir institutun–AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun ilk dəfə bugünkü beynəlxalq simpoziuma canlı bağlantı vasitəsilə qoşulmasını «Elektron Naxçıvan» hərəkatının humanitar siyasətinin mühüm uğuru kimi qiymətləndir-mişdir (3 iyul).*

- *Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində Ulu öndəri Heydər Əliyevin hakimiyyətə gəlməsinin 45-ci ildönümünə həsr olunmuş «Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik idealları və müasir dövr» mövzusunda elmi konfransda AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli «Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəqil dövlətçilik idealları və müasirlik» mövzusunda məruzə ilə çıxış etmişdir (14 iyul).*
- *Rostov vilayətinin Vyosenski qəsəbəsində Şoloxovşünasların «Müasir dövrdə M.A.Şoloxovun yradaıcılığının öyrənilməsi: problemlər, konsepsiyalar, yanaşmalar» mövzusunda beynəlxalq elmi konfransda iştirak və çıxış etmişdir (16 sentyabr).*
- *AMEA-da «Söz mülkünün Şəhriyarı» adlı tədbirdə Məmmədhüseyn Şəhriyarın yaradıcılığından bəhs edən məruzəsi dinlənilmişdir (17 sentyabr).*
- *Nizami adına Ədəbiyyat İnstitutunda «Çanaqqala-zəfəri, Bakının qurtuluşu şərəf tariximizdir» mövzusunda keçirilən beynəlxalq konfransasədrlik və çıxış etmişdir (18 sentyabr).*
- *Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin müəllifi olduğu «Əsrin müqaviləs»nin 20 illik yubileyinə həsr edilmiş «Ədəbiyyatda və sənətdə neft faktoru» mövzusunda elmi konfransa sədrlik etmiş, «Azərbaycan ədəbiyyatının neft dünyası» mövzusunda geniş məruzəsi dinlənilmişdir (19 sentyabr).*
- *Mixail Şoloxov və dünya ədəbiyyatı mövzusunda beynəlxalq elmi konfransda iştirak etmişdir (Rostov vilayəti, Vyoşenski, sentyabr).*
- *Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında keçirilən Naxçıvan MR-nın 90 illiyinə həsr edilmiş elmi-praktiki konfransda «Azərbaycan dövlətçilik tarixində Naxçıvan muxtariyyətinin rolu» mövzusunda məruzə etmişdir (30 sentyabr).*
- *AMEA Rəyasət Heyətində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin «Dağlıq Qarabağ: məxəzlərdən oxunmuş tarix» monoqrafiyasının müzakirəsində «Dağlıq Qarabağ: məxəzlərdən oxunmuş tarix» kitabında tarixi dərinlik və müasirlik» mövzusunda məruzə ilə çıxış etmişdir (1 oktyabr).*
- *Nizami adına Ədəbiyyat İnstitutunda keçirilən «Mirzə Fətəli Axundzadə və Azərbaycan ədəbiyyatinin Qərbə inteqrasiyasi» adlı beynəlxalq elmi konfransda məruzə ilə çıxış etmişdir (3 oktyabr).*
- *AMEA Mərkəzi Kitabxana-İnformasiya Resursları Mərkəzində Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində «Qloballaşmanın çağırışları: ənənə və transformasiya arasında» mövzusunda V «dəyirmi masa»ya rəhbərlik edib. «Oriyentalizm və postorientalizm: elmi təd-qiqatların yeni problematikası» adlı mövzu ətrafında məruzəsi dinlənilib (8 oktyabr).*
- *Aida İmanquliyevanın yubileyi ilə bağlı keçirilən beynəlxalq elmi konfransda «Görkəmli şərqşünas alim Aida İmanquliyeva haqqında söz» mövzusunda məruzə etmişdir (10 oktyabr).*
- *Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində fəaliyyət göstərən Türk Akademiyasında «Türk dünyasında inteqrasiya: humanitar və iqtisadi aspektlər» mövzusunda beynəlxalq elmi seminarda Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli «Naxçıvan Sammiti və türk dünyasının inkişaf perspektivləri» mövzusunda məruzə ilə çıxış etmişdir (31oktyabr).*
- *Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində Beynəlxalq Türk Akademiyasının təşkilatçılığı ilə «Türk dünyası: Böyük şəxsiyyətlərin irsi» mövzusunda elmi konfransda «Böyük mütəfəkkir Əli bəy Hüseynzadə və müasirlik» mövzusunda məruzə ilə çıxış etmişdir (oktyabr).*

- *«Fizika və lirika: dünya təcrübəsi və Azərbaycan reallıqları» mövzusunda keçirilmiş elmi seminarda. AMEA-nın vitse-prezidenti, akademik İ.Həbibbəylinin «Fizika və lirika: elmi düşüncədə bədii fantaziya və lirikada kainat» mövzusunda məruzəsi dinlənilmişdir (11 noyabr).*
- *Nizami adına Ədəbiyyat İnstitutunda YAP Yasamal rayon təşkilatı ilə birlikdə Yeni Azərbaycan Partiyasının 22-ci ildönümünə həsr olunmuş tədbirdə «Yeni Azərbaycan Partiyası: Heydər Əliyevdən İlham Əliyevə» mövzusunda məruzə etmişdir ( 25 noyabr).*
- *Ədəbiyyat İnstitutunda Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş elmi sessiyada məruzəsi dinlənilmişdir (8 dekabr).*
- *Məmməd Arif Dadaşzadənin 110 illiyinə həsr həsr olunmuş «Böyük ədəbiyyatşünaslıq irsi və müasirlik» mövzusunda elmi konfransda məruzə etmişdir (17 dekabr).*

***2015-ci il***

- *Nizami adına Ədəbiyyat İnstitutunda keçirilən «Uşaq ədəbiyyatı: ədəbi-tarixi ənənələri və müasir problemləri» mövzusunda yaradıcılıq müşavirəsində «Müstəqillik illərində Azərbaycan Uşaq ədəbiyyatı» başlıqlı məruzəsi dinlənilmişdir (28 yanvar).*
- *Nizami adına Ədəbiyyat İnstitutunda Çin Mədəniyyət Mərkəzinin açılışında çıxış etmişdir. (4 fevral)*
- *AMEA Rəyasət Heyətində «Azərbaycanlılara qarşı soyqırımların tədqiqi» Komissiyasının növbəti iclasında Komissiyanın sədr müavini, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli soyqırım tədqiqatları ilə bağlı görülən işlər barədə ətraflı məlumat verib (9 fevral).*
- *Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında görkəmli ədəbiyyatşünas alim, AMEA-nın müxbir üzvü Əziz Mirəhmədovun 95 illik yubileyi ilə bağlı elmi sessiyanı giriş nitqi ilə açan AMEA-nın vitse-prezidenti, institutun direktoru, akademik İsa Həbibbəyli görkəmli alimin həyat və yaradıcılığı, ədəbiyyatşünaslıq elmi sahəsində zəngin fəaliyyəti haqqında ətraflı məlumat verib (11 fevral).*
- *Konfutsi İnstitutu ilə elmi əməkdaşlıq müqaviləsi (fevral).*
- *AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında bu elmi müəssisənin Mətbuat tarixi və publisistika şöbəsi tərəfindən «Azərbaycan mətbuatının xronologiyası - Ziya» kitabının təqdimat mərasimi keçirildi.Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli Azərbaycan mətbuatı tarixində xüsusi yer tutan «Ziya» qəzetinin transliterasiyalı nəşrini mühüm hadisə kimi dəyərləndirdi (19 fevral).*
- *Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında Xocalı soyqırımının 23-cü ildönümünə həsr olunan anım mərasimdə «Ermənilərin törətdikləri soyqırımı XX əsrin ən dəhşətli faciəsidir» mövzusunda məruzəsi dinlənildi (24 fevral).*
- *Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında ədəbiyyatşünas alim, tənqidçi, görkəmli nəzəriyyəçi Arif Hacıyevin 80 illik yubileyi ilə bağlı tədbirdə giriş nitqi ilə çıxış etmişdir (11 mart).*
- *Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının növbəti iclasında akademik İsa Həbibbəyli müəllifi olduğu «Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyası»nın layihəsini elmi ictimaiyyətə təqdim edib. Ədəbiyyat tarixinin dövrləşdirilməsi istiqamətində 9 mərhələ üzrə inkişaf proseslərinin xarakteristikası şərh edilib (18 mart).*
- *Nizami adına Ədəbiyyat İnstitutunun elmi şurasının növbəti iclasında Akademik İsa Həbibbəyli «Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyası»nın layihəsini elmi ictimaiyyətə təqdim edib. Ədəbiyyat tarixinin dövrləşdirilməsi istiqamətində 9 mərhələ üzrə inkişaf proseslərinin xarakteristikası şərh edilib. Akademik İsa Həbibbəyli müəllifi olduğu konsepsiyanın layihəsi barədə ətraflı və konseptual şərh verib (19 mart).*
- *Nizami adına Ədəbiyyat Institutunda Əziz Şərifin anadan olmasının 120 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirilmişdir. Konfransı giriş sözü AMEA-nın vitse-prezidenti, institutun direktoru, akademik İsa Həbibbəyli açaraq görkəmli alimin həyat və yaradıcılığından bəhs etmişdir (6 aprel).*

- *Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında AMEA Humanitar Elmlər Bölməsi və Yeni Yurd Sosial İnkişaf İctimai Birliyinin təşkilatçılığı ilə Çanaqqala zəfərinin 100 illiyinə həsr edilmiş «Çanaqqala zəfəri və müasir dövr» mövzusunda elmi-ədəbi gecədə çıxış etmişdir (8 aprel).*
- *Quba şəhərindəki Heydər Əliyev Mərkəzində «Azərbaycan və Şərqi Anadolunun türk-müsəlman əhalisinin soyqırımı» (1914-1920-ci illər) adlı II Beynəlxalq elmi konfransda AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli məruzə ilə çıxış edib (10 aprel).*
- *Xocalı soyqırımının 23-cü ildönümünə həsr olunan anım mərasimində akademik İsa Həbibbəyli AMEA Rəyasət Heyətinin 15 oktyabr 2014-cü il tarixli qərarı ilə yaradılmış «Azərbaycanlılara qarşı soyqırımların tədqiqi» komissiyasının fəaliyyətindən soyqırımı tədqiqatları ilə bağlı görülən işlər haqqında məlumat verdi (12 aprel).*
- *Nizami adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalında 2014-cü ilin ədəbi yekunlarına həsr olunmuş «Ədəbi proses-2014» mövzusunda elmi-yaradıcılıq müşavirəsi keçirilmişdir. Tədbiri giriş sözü ilə AMEA-nın vitse-prezidenti, institutun direktoru, akademik İsa Həbibbəyli açaraq, yaradıcılıq müşavirəsi Azərbaycan ədəbiyyatşünaslıq elmində son illərin ən mühüm hadisələrindən biri kimi dəyərləndirmişdir (27 aprel).*
- *Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunda ədəbiyyatşünas alim, filologiya üzrə elmlər doktoru, professor Bədirxan Əhmədovun «Elm və təhsil» nəşriyyatında yenicə çapdan çıxmış «XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər» monoqrafiyasının təqdimat mərasimində çıxış etmişdir. Nəşrin elmi redaktoru AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylidir (aprel).*
- *«Azərbaycan müasir dünyada» mövzusunda Ümummilli Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş konfransda çıxış etmişdir (may).*
- *«Yeddi ulu ozan»: beynəlxalq elmi simpoziumunda çıxış etmişdir (7 may)*
- *AMEA və Respublika Ağsaqqallar Şurasının təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 92-ci ildönümünə həsr edilmiş «Respublikanın ictimai-siyasi həyatında AMEA, Respublika Ağsaqqallar Şurası və gənc alimlərin rolu» mövzusunda konfransda akademik İsa Həbibbəylinin «Azərbaycan Respublikasının ictimai-siyasi həyatında MEA-nın rolu» mövzusunda məruzəsi dinlənilmişdir (may).*
- *«Məxdimqulu Fəraqi » dostluq və həmrəyliyin tərənnümçüsüdür » mövzusunda elmi-təcrübi konfransda Fəraqinin zəngin yaradıcılığı, türkmən ədəbiyyatında yeri və xidmətləri haqqında giriş nitqi söyləmişdir (19 may).*
- *Yeni Yurd Sosial İnkişaf İctimai Birliyinin 10 illiyi münasibətilə təsis edilmiş «Böyük yurdsevər» mükafatı təqdim edilmişdir (20 may).*
- *«Azərbaycan-Türkiyə: yeddi ulu ozan» mövzusunda Beynəlxalq elmi simpoziumu giriş nitqi ilə AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli açmışdır.Akademik İ.Həbibbəyli bildirib ki, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Əmini, Virani, Pir Sultan Abdal və Qul Himmət Anadoluda «Yeddi Ulu Ozan» kimi qəbul edilir və tanınırlar. Nəsimi, Xətai, Füzuli Azərbaycanda olduğu kimi, Türkiyədə də çox sevilən dahi sənətkarlardır (21 may).*
- *Yeni Azərbaycan Partiyasının Yasamal rayon təşkilatının X konfransına həsr olunmuş hesabat seçki yığıncağında çıxış etmişdir (22 may)*
- *Filologiya elmləri doktoru, tanınmış ədəbiyyatşünas alim Vəli Osmanlının 80 illik yubileyinə həsr olunan anma mərasimində AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli Vəli Osmanlının Azərbaycan ədəbiyyatşünaslıq elmindəki mövqeyi, elmi yaradıcılığı barədə məruzə ilə çıxış edib (2 iyun).*
- *«Milli dəyərlər və istiqlal uğrunda mübarizələr» mövzusunda respublika konfransında AMEA-nın vitse-prezidenti, akademik Isa Həbibbəyli çıxış edərək bildirib ki, xalq şairi Bəxtiyar Vahabzadə həm bədii yaradıcılığı, həm ictimai-siyasi, həm də elmi-pedaqoji*

fəaliyyəti ilə Azərbaycanda milli şüurun oyanışı, azərbaycançılıq məfkurəsinin formalaşması sahəsində müstəsna xidmətlər göstərib (4 iyun).

- Azərbaycanın xalq şairi, ədəbiyyatşünas və ictimai xadim, akademik Bəxtiyar Vahabzadənin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş «Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatı və mədəniyyətinin fenomeni kimi» mövzusunda elmi konfransı giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli B.Vahabzadənin həyat və yaradıcılığından, onun XX əsr Azərbaycan ədəbiyyatına verdiyi töhfələrdən danışıb (10 iyun).
- Qazaxıstanın paytaxtı Astana şəhərində Türk Dünyası Elmlər Akademiyaları İttifaqının təsis sessiyasında iştirak edib (29 iyun, Qazaxıstan, Astana).
- Milli mətbuatın yaranmasının 140 illiyinə həsr olunmuş elmi sessiyanı giriş nitqi ilə çıxış edib. (1iyul)
- « Elektron Naxçıvan – 10: Təhsil proseslərinin təkmilləşdirilməsində informasiya-kommunikasiya texnologiyalarının rolu» mövzusunda Naxçıvanda keçirilən beynəlxalq konfransda çıxış edib (6 iyul).
- Azərbaycan nümayəndə heyətinin tərkibində «Expo-2015» sərgisində iştirak etmişdir. Milan şəhər bələdiyyəsinin binasında Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü, «525-ci qəzet»in baş redaktoru, şair-publisist Rəşad Məcidin italyan dilində çapdan çıxmış «O» (La Donna) adlı şeirlər kitabının və şairin şeirlərinə italyan dilində bəstələnmiş musiqilərdən ibarət diskin təqdimatı mərasimində çıxış etmişdir (13 iyul, İtaliya, Milan).
- Avrasiya Universitetlər Birliyi (EURAS) Bakının Hilton hotelində 2016-cı ilin fevral ayında İstanbulda keçiriləcək Avrasiya Beynəlxalq Ali Təhsil Zirvəsi (EURIE) ilə bağlı geniş tanıtım toplantısı keçirib. Toplantıda Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli də iştirak edərək öz çıxışında EURAS-ın fəaliyyətini yüksək qiymətləndirmiş, Bakıda reallaşdırılan tanıtım toplantısının mühüm əhəmiyyətini qetyd etmişdir.
- Akademik İsa Həbibbəyli elmi tədqiqatlarında Şəhriyarın yaradıcılığına geniş yer verdiyinə görə «M.Şəhriyarın mədəniyyət ordeni» ilə təltif edilmişdir (15 sentyabr, İran, Təbriz).
- «Şəhriyar şeir ənənələri və müasirlik» mövzusunda elmi-praktiki konfransda məruzə ilə çıxış etmişdir (21 sentyabr).
- AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli AMEA Rəyasət Heyətinin iclasında ‘‘Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyası’’ mövzusunda elmi məruzə ilə çıxış etmişdir (23 sentyabr).
- Qazaxıstanın paytaxtı Astana şəhərində Beynəlxalq Türk Akademiyasının təşkilatçılığı ilə Türk dünyası Ədəbiyyat institutları direktorlarının iclasında iştirak etmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli iclasda»Türk xalqları ədəbiyyatının dövrləşdirilməsi konsepsiyası»nı təqdim etmişdir (5 oktyabr, Qazaxıstan, Astana).
- AMEA-nın 70 illiyinə həsr olunmuş yubiley tədbirləri çərçivəsində Mərkəzi Elmi Kitbaxananın oxucuların istifadəsinə verilməsi münasibətilə rəsmi açılış mərasimində AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli ölkəmizdə elmin inkişafına göstərilən dövlət qayğısından söz açmış, müasir tələblərə cavab verən MEK-nın fəaliyyəti barədə ətraflı məlumat verərək, kitabxananın yeni binasının Prezident İlham Əliyevin 2011-ci il 29 aprel tarixli Sərəncamına əsasən tikildiyini bildirmişdir (14 oktyabr).
- Hüseyn Cavidin Ev Muzeyində böyük şair və dramaturq Hüseyn Cavidin anadan olmasının 133-cü ildönümü münasibətilə «Hüseyn Cavid əsərlərinin gənc nəslin tərbiyəsində rolu» mövzusunda respublika elmi konfransında tədbiri giriş nitqi ilə açan AMEA–nın vitse-prezidenti, akademik İsa Həbibbəyli böyük şair və dramaturq Hüseyn Cavidin həyat və yaradıcılığından, bütün zamanlar üçün aktuallığını qoruyub saxlayan əsərlərinin ideya-məzmun xüsusiyyətlərindən, eləcə də ona göstərilən dövlət qayğısından bəhs etmişdir (23 oktyabr).
- Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun, AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Dövlət

*Universitetinin birgə təşkilatçılığı ilə iki gün davam edəcək «Naxçıvanda Dədə Qorqud» beynəlxalq elmi simpoziumda AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylininin «Dədə Qorqud ideyaları və müasirlik» mövzusunda məruzəsi dinlənilib (26 oktyabr).*

- *Heydər Əliyev adına sarayda Xalq şairi, tanınmış dramaturq, ədəbiyyatşünas və ictimai xadim, SSRİ-nin və Azərbaycan Respublikasının dövlət mükafatları laureatı Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 90 illik yubileyi ilə bağlı təntənəli tədbirdə çıxış etmişdir (29 oktyabr).*
- *Mərkəzi Seçki Komissiyasının Azərbaycan Respublikası Milli Məclisinə seçkilərin nəticələrinə görə 2 saylı Şərur seçki dairəsi ndən millət vəkili seçilmişdir (1-2 noyabr).*
- *Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında keçirilən Əliağa Vahidin anadan olmasının 120 illiyinə həsr edilmiş elmi konfransda şairin həyat və yaradıcılığına dair giriş nitqi söyləmişdir (3 noyabr).*
- *Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Kitabxanasında » Kitabi-Dədə Qorqud»un elm aləminə məlum olmasının 200 illiyinə həsr olunmuş»Epos və etnos» adlı beynəlxalq simpoziumda akademik İsa Həbibbəyli bütün türk dünyasının həmişəyaşar abidəsi sayılan «Kitabi-Dədə Qorqud» eposunun əsrlərdən bəri milli-mənəvi varlığımızın tərkib hissəsinə çevrilməsindən söz açaraq bu istiqamətdə ümummilli lider Heydər Əliyevin xidmətlərini xüsusi qeyd edib (6 noyabr).*
- *Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda «Azərbaycanda humanitar elmlərin inkişaf perspektivləri» mövzusunda məruzə ilə çıxış etmişdir (9 noyabr).*
- *Mədəniyyət və Turizm Nazirliyi ilə əməkdaşlıq müqaviləsi imzalamışdır (20 noyabr)*
- *Azərbaycan Respublikası Milli Məclisin Elm və təhsil Komitəsinin sədri seçilmişdir (24 noyabr).*
- *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına uğurlu rəsmi səfəri zamanı Azərbaycan Milli Elmlər Akademiyasının nümayəndə heyəti ilə Çin Xalq Respublikası İctimai Elmlər Akademiyasının dəvəti ilə Pekində səfərdə olmuşdur (dekabr).*
- *«Türk xalqları ədəbiyyatı: mənşəyi, inkişaf mərhələləri və problemləri» Beynəlxalq elmi konfransını giriş nitqi ilə açmış və konfransda «Türk xalqları ədəbiyyatına yeni baxış: zaman və ədəbi proses» mövzusunda məruzəsi dinlənilmişdir (1-2 dekabr, 2015).*

***2016-cı il***

- *Prezident İham Əliyevin İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESKO) üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılması haqqında sərəncamına əsasən AMEA-nın vitse-prezidenti akademik İsa Həbibbəyli Komissiyaya üzv seçilib (14 yanvar).*
- *Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «Ceyhun Hacıbəylinin 125 illik yubileyinin keçirilməsi haqqında» 19 noyabr 2015-ci il tarixli, 1538 №-li Sərəncamına əsasən elmi sessiyada məruzəsi dinlənilmişdir (3 fevral).*
- *Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında Birinci Türkoloji Qurultayın 90 illiyinə həsr olunan elmi sessiyada çıxış edib (3 mart).*
- *Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında AR Prezidentinin Fərmanı ilə yeni tərkibə üzv seçilmişdir (28 mart)*
- *Azərbaycan Milli Elmlər Akademiyasında) «Azərbaycan ordusunun zəfəri: inam və dəstək» mövzusunda keçirilən tədbirdə çıxış edən AMEA-nın vitse-prezidenti İsa Həbibbəyli hazırda Azərbaycan müstəqillik dövrünün ən şərəfli və məsuliyyətli dövrünü yaşadığını vurğulamışdır (6 aprel).*
- *"Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)" adlı III Beynəlxalq elmi konfransda iştirak etmişdir (8 aprel 2016-cı il, Şamaxı)*
- *AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında Birinci Türkoloji Qurultayın 90 illiyinə həsr edilən «Azərbaycan-Macarıstan ədəbi əlaqələri və türkologiyanın inkişafında macar alimlərin rolu» mövzusunda elmi konfransda məruzə ilə çıxış etmişdir (16 aprel).*

- *Nizami adına Ədəbiyyat İnstitutu «Ədəbi-proses-2015» elmi müşavirəsində İinstitutun direktoru, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli rəhbərlik etdiyi qurumda ədəbi proseslərə həsr olunan yaradıcılıq müşavirələrinin 1976-cı ildən 1984-cü ilədək ardıcıl olaraq ilin keçirildiyini söyləyib və «Ədəbi proses – 2013» yaradıcılıq müşavirəsi Azərbaycan ədəbiyyatşünaslıq elmində son illərin ən mühüm hadisələrindən biri olduğunu qeyd edib. İ.Həbibbəyli institut tərəfindən Azərbaycan ədəbiyyatının dövrləşməsi konsepsiyasının hazırlanacağını, konsepsiyada bütün mərhələlərin əhatə olunacağını diqqətə çatdırıb (18 aprel).*
- *AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında «Molla Nəsrəddin» jurnalının 110 illiyinə həsr olunan «Sizi deyib gəlmişəm...» mövzusunda elmi konfransda məruzəsi dinlənilib (20 aprel).*
- *Nizami adına Ədəbiyyat İnstitutunda qazax xalqının nümayəndələri ilə birlikdə görkəmli qazax yazıçısı Oljas Süleymenovun 80 illik yubileyinə həsr olunmuş təntənəli iclasda akademik İsa Həbibbəyli giriş nitqi ilə çıxış etmişdir. Daha sonra akademik İ.Həbibbəyli İnstitutun Elmi şurasının 22 aprel 2016-ci il tarixli qərarı ilə görkəmli qazax yazıçısı və ictimai xadim Oljas Omaroviç Süleymenova Azərbaycanda müstəqillik ideallarının möhkəmləndirilməsində, ədəbiyyatın və ictimai fikrin inkişafında görkəmli xidmətlərinə görə fəxri doktoru elmi dərəcəsi verildiyini açıqlayıb. Bu münasibətlə institut rəhbəri «Fəxri doktor» diplomu və xüsusi hazırlanmış mantiyanı Oljas Süleymenova təqdim edib (25 aprel).*
- *Məhtimqulu Fəraqi «Divan»ının təqdimat mərasimində çıxış edib (28 aprel).*
- *«Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri»: XV beynəlxalq elmi-praktiki konfrans da məruzəsi dinlənilib (2 may).*
- *«Heydər Əliyev və Azərbaycan mədəniyyəti»: elmi-praktik konfrans-telekörpüdə çıxışları dinlənilmişdir (5 may).*
- *Beynəlxalq Türk Akademiyasının təşkilatçılığı ilə «Böyük Çöl» adlı Birinci Humanitar Elmlər Forumunda iştirak edib (Qazaxıstan, Astana, 22-25 may).*
- *Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında Azərbaycan ədəbiyyatşünaslıq elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi, akademik Kamal Talıbzadənin «Azərbaycan ədəbi tənqidinin tarixi (1800-1920-ci illər)» və «Seçilmiş əsərləri» kitablarının təqdimat mərasimində çıxış edib (25 may).*
- *AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Nizami adına Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə keçirilən «Sədi Şirazi dünyası» mövzusunda beynəlxalq elmi konfransda AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxışında iki ölkə arasında müxtəlif sahələrdə mövcud olan əlaqələrdən söz açaraq bu cür tədbirlərin keçirilməsinin ölkələr arasında əlaqələrin genişləndirilməsinə, İslam dünyasında həmrəyliyin daha da gücləndirilməsinə töhfə verəcəyinə əminliyini bildirib (1 iyun).*
- *Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinə üzv seçilmişdir (3 iyun)*
- *Akademik İsa Həbibbəyli Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü seçilmişdir (8 iyun)*
- *Türkmənistan Elmlər Akademiyasında keçirilmiş Elm Günündə ölkəmizi Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli təmsil edib (iyun).*
- *Akademik İsa Həbibbəyli Mahmud Kaşğari Fondunun «Mahmud Kaşğari» medalı ilə təltif olunub (7 iyun).*
- *Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının Siyasi Şurasının üzvü seçilmişdir («Azərbaycan» qəzeti, №123, 9 iyun 2016-cı il)*
- *Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında böyük mütəfəkkir Cəlil Məmmədquluzadənin «Ölülər» əsərinin ilk tamaşasının 100 illiyinə həsr edilmiş tədbirdə çıxış etmişdir. Tragikomediyanın elmi məsləhətçisi, AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylidir (28 iyun)*

- *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlətçilik siyasətini uğurla həyata keçirdiyinə görə «Parlamentin səsi.tv internet televiziyasının» rəy sorğusuna əsasən «Şərəfli ömür» fəxri diplomu ilə təltif edilmişdir (iyul )*
- *Mətbuata göstərdiyi diqqət və dəstəyinə görə pressxəbərşinfo və xəzər.info tərəfindən «El ağsaqqalı» Fəxri Medi Mükafatı ilə təltif edilmişdir. (iyul)*
- *Beynəlxalq Altayşünaslıq Konfransı. PİAC-59. 26 iyun - 1 iyul. Ərdahan, Türkiyə*
- *«İslam coğrafiyasında və Azərbaycanda xalq oyunları və meydan tamaşaları» mövzusunda Beynəlxalq Elmi Konfransda iştirak etmişdir (15 iyul 2016-cı il. Bakı, Azərbaycan)*
- *«Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri» mövzusunda beynəlxalq konfransda iştirak etmişdir (8-9 sentyabr 2016-cı il. Bakı, Azərbaycan*
- *«Azərbaycan mühacirət ədəbiyyatı: reallıqlar, problemlər, vəzifələr» mövzusunda beynəlxalq konfransda iştirak etmişdir (10-11 oktyabr 2016-cı il. Bakı, Azərbaycan)*
- *Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində Azərbaycanın dövləti müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş Beynəlxalq Konfransda iştirak etmişdir (17 oktyabr 2016-cı il. Bakı, Azərbaycan)*
- *Ankarada Türkiyə Elmlər Akademiyasının təşkilatçılığı, Beynəlxalq Türk Akademiyası və Türk Dünyası Elmlər Akademiyaları Assosiasiyasının iştirakı ilə Birinci Türkoloji Qurultayın 90 illiyinə həsr edilmiş "Türk dünyasında elmi əməkdaşlıq və dialoq" mövzusunda beynəlxalq elmi konfransda "Birinci Türkoloji Qurultay və elmi-mədəni inteqrasiya prosesləri" mövzusunda məruzə iilə çıxış etmişdir. (20-23 oktyabr)*
- *Görkəmli gürcü klassiki Şota Rustavelinin «Pələng dərisi geyinmiş pəhləvan» əsərinin 850 illiyinə həsr olunmuş beynəlxalq konfransda iştirak etmişdir ( 4-5 noyabr 2016-cı il. Tbilisi, Gürcüstan)*
- *"Multikulturalizm və teatr" mövzusunda IV Bakı Beynəlxalq Teatr Konfransında iştirak etmişdir (7 noyabr 2016-cı il. Bakı, Azərbaycan)*
- *Birinci Türkoloji Qurultayın 90 illiyinə həsr olunan »Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar» mövzusunda beynəlxalq konfransda iştirak etmişdir (14-15 noyabr Ankara, Türkiyə)*
- *AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda Özbəkistanın Bakıdakı səfirliyi ilə birgə təşkil edilmiş, böyük şair Əlişir Nəvainin 575 illiyinə həsr olunmuş "Əlişir Nəvai və Azərbaycan ədəbiyyatı" mövzusunda beynəlxalq elmi konfransda çıxış etmişdir (16 noyabr)*
- *Azərbaycan Müəllim İnkişafı Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən «Təlimin keyfiyyətinin yüksəldilməsi» adlı beynəlxalq konfransda çıxış etmişdir (17 noyabr)*
- *«Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağirişlar» mövzusunda beynəlxalq konfransda iştirak etmişdir (17 noyabr 2016-cı il, Bakı, Azərbaycan)*
- *AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunan «Azərbaycan əlyazmaları dünya kitabxanalarında» mövzusunda birinci beynəlxalq elmi-nəzəri konfransda çıxış etmişdir (18 noyabr)*
- *I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş «Müasir türkoloji tədqiqatlar: problem və perspektivlər» mövzusunda gənc türkoloqların beynəlxalq elmi konfransı. 21 noyabr 2016-cı il. Bakı, Azərbaycan*
- *«Qarabağın arxeoloji irsi» mövzusunda beynəlxalq elmi konfrans. 28-30 noyabr 2016-cı il. Bakı, Azərbaycan*
- *Rostov Cənubi Rusiya Universitetinin 25 illik yubileyinə həsr olunmuş beynəlxalq tədbir. 4-5 dekabr 2016-cı il. Rostov, Rusiya*
- *Cənubi Rusuya Universitetinin fəxri doktoru seçilmişdir ( Rostov, 5 dekabr, 2016-cı il)*
- *«Yeni mərhələdə elmi əlaqələrin inkişafı: dialoq və əməkdaşlıq» mövzusunda MDB ölkələrinin Elmlər Akademiyalarının Humanitar və İctimai Elmlər Bölmələri rəhbərlərinin iştirakı ilə beynəlxalq elmi seminar (19-20 dekabr 2016-cı il, Bakı, Azərbaycan)*

***2017-ci il***

- *Saib Təbrizinin yaradıcılığına həsr olunmuş beynəlxalq konfransda iştirak etmişdir (13-15 yanvar 2017-ci il. Təbriz, İran)*
- *İLESAM-ın (Türkiye İlim ve Edebiyat Eseri Sahipleri Meslek Birliği ) üzvlüyünə qəbul edilmişdir (14 fevral 2017-ci il)*
- *Azərbaycan Respublikası Milli Məclisinin Plenar iclasında "Məktəbəqədər təhsil haqqında" qanun layihəsi barədə (II oxunuş) çıxış etmişdir - 1-ci hissə. 14 fevral 2017-ci il.*
- *Beynəlxalq Türk Mədəniyyəti Qurumu (TÜRKSOY) tərəfindən XVIII əsr Azərbaycan poeziyasının parlaq siması, görkəmli şairi, məşhur siyasi və dövlət xadimi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyi münasibətilə 2017-ci ilin «Molla Pənah Vaqif ili» elan edilməsi münasibətilə beynəlxalq konfrans (01-4 mart 2017-ci il. Ankara, Türkiyə)*
- *Azərbaycan Respublikası Milli Məclisinin Plenar iclasında "Məktəbəqədər təhsil haqqında" qanun layihəsi barədə (II oxunuş) çıxış etmişdir. - 2-ci hissə. 10 mart 2017-ci il.*
- *Azərbaycan Respublikası Milli Məclisinin Plenar iclasında Məktəbəqədər təhsil haqqında qanun layihəsi barədə (III oxunuş) çıxış etmişdir. 14 aprel 2017-ci il.*
- *Qafqazşünasların Birinci Beynəlxalq Forumu (17-18 aprel 2017-ci il. Bakı, Azərbaycan)*
- *Beşinci Çağırış Azərbaycan Respublikası Milli Məclisinin VI sessiyası. Hesablama Komissiyasına sədrlik və çıxış etmişdir. 24 aprel 2017-ci il.*
- *Akademik Ağamusa Axundovun 85 illiyinə həsr olunmuş «Ağamusa Axundov və Azərbaycan filologiyası» Beynəlxalq elmi konfrans (24-25 aprel 2017-ci il. Bakı, Azərbaycan)*
- *«Heydər Əliyev və Azərbaycan mədəniyyəti» mövzusunda II Respublika elmi konfransı (Mədəniyyət və Turizm Nazirliyi və AMEA ( Bakı, 3 may 2017-ci il)*
- *IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu. Bakı, 4-6 may 2017-ci il*
- *Akademik Georq Hazainin anadan olmasının 85 illiyi münasibətilə dövlət tədbirləri. Budapeşt, Macarıstan. (23-27 may 2017-ci il)*
- *Türkmənistanda Elm Günləri çərçivəsində beynəlxalq konfransda (Aşqabad, 11-14 iyun 2017-ci il)*
- *İslam həmrəyliyi: Türkiyə-Azərbaycan dostluğu timsalında: Beynəlxalq konfrans. İstanbul, Türkiyə. 25 sentyabr 2017-ci il.*
- *AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda elmi şuranın növbəti iclasında AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi ilə bağlı konsepsiyasının yekun nəticələrinin müzakirəsi keçirilib. 13 oktyabr 2017-ci il*
- *Hüseyn Cavidin anadan olmasının 135 illik yubileyinə həsr olunmuş Beynəlxalq elmi konfrans. Bolqarıstan, Sofiya, 28 oktyabr 2017-ci il.*
- *Hüseyn Cavidin anadan olmasının 135 illik yubileyinə həsr olunmuş «Hüseyn Cavidin sənət fəlsəfəsi» mövzusunda Beynəlxalq elmi-praktiki konfrans. Bakı, 24-25 oktyabr 2017-ci il.*
- *Azərbaycan Respublikası Milli Məclisinin iclasında 2018-ci ilin Dövlət büdcəsininin müzakirəsində çıxış etmişdir. 08 noyabr 2017-ci il.*
- *«İnkişaf edən Çin və dəyişən müasir dünya» mövzusunda Beynəlxalq elmi konfrans. Çin, Pekin, 17-18 noyabr 2017-ci il.*
- *Türk Dünyası Milli Elmlər Akademiyaları Birliyinin iclası. Qazaxıstan, Astana, 25-27 noyabr 2017-ci il.*
- *Azərbaycan Respublikası Milli Məclisinin Toponomiya Komissiyasının iclasında çıxış etmişdir. 04 dekabr 2017-ci il.*
- *Görkəmli gürcü türkoloqu, akademik Elizbar Cavelidzenin 80 illik yubiley mərasimi (Gürcüstan, Tbilisi, 15 dekabr, 2017-ci il)*